Xalq qəzeti.- 2019.- 31 dekabr.- S.14.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 517** **Bakı şəhəri, 29 dekabr 2019-cu il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında" 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli, "Patent müvəkkilləri haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" 2000-ci il 15 fevral tarixli 21 nömrəli, "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında" 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli, "Girov müqaviləsinin qeydiyyatı Qaydaları"nın təsdiq edilməsi haqqında" 2009-cu il 18 sentyabr tarixli 146 nömrəli, "Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 23 fevral tarixli 39 nömrəli və "İxtira və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 12 aprel tarixli 63 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1509-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 608 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli1097 nömrəli Sərəncamının 1.4-cü bəndinə və "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 aprel tarixli 609 nömrəli Fərmanının 1.5-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 600; 2004, № 3, maddə 193, № 9, maddə 742; 2006, № 5, maddə 463; 2009, № 1, maddə 32, № 9, maddə 752; 2012, № 9, maddə 924, № 11, maddə 1209; 2014, № 7, maddə 899; 2018, № 12 (II kitab), maddə 2735) ilə təsdiq edilmiş "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 35.1-ci bəndinin birinci abzasının ikinci cümləsində "dövlət rüsumu" sözləri "haqq" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 119; 2002, № 3, maddə 148; 2004, № 3, maddə 193; 2009, № 1, maddə 32, № 9, maddə 752; 2010, № 3, maddə 255; 2014, № 5, maddə 578, № 12, maddə 1661; 2016, № 5, maddə 961; 2017, № 1, maddə 132; 2018, № 12 (II kitab), maddə 2735) ilə təsdiq edilmiş "Patent müvəkkilləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.1-ci bəndin birinci abzasının ikinci cümləsində "dövlət rüsumu ödənilməsi" sözləri "haqqın ödənilməsini" sözləri ilə əvəz edilsin;

2.2. 6.4-cü bəndin birinci abzası üzrə:

2.2.1. ikinci cümləyə "alınması" sözündən sonra "üçün müəyyən edilmiş haqqın" sözləri və "verilməsi" sözündən sonra "üçün dövlət rüsumunun" sözləri əlavə edilsin;

2.2.2. üçüncü cümləyə "müddətdə" sözündən sonra "dövlət rüsumunun və" sözləri əlavə edilsin;

2.2.3. dördüncü cümləyə "edilmiş" sözündən sonra "dövlət rüsumunun və" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 692; 2002, № 3, maddə 148; 2004, № 3, maddə 193; 2009, № 1, maddə 32, № 9, maddə 752; 2012, № 9, maddə 923, № 11, maddə 1210; 2014, № 7, maddə 900; 2018, № 12 (II kitab), maddə 2735) ilə təsdiq edilmiş "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın IV fəslinin 7-ci hissəsinin ikinci abzasının ikinci cümləsində "dövlət rüsumu" sözləri "haqq" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 18 sentyabr tarixli 146 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 750; 2018, № 12 (II kitab), maddə 2734) ilə təsdiq edilmiş "Girov müqaviləsinin qeydiyyatı Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.3-cü bənddə "dövlət rüsumu" sözləri "haqq" sözü ilə əvəz edilsin;

4.2. 2.2-ci bəndin altıncı abzasında "dövlət rüsumunun" sözləri "haqqın" sözü ilə əvəz edilsin;

4.3. 3.3-cü bəndin dördüncü cümləsində "verilmiş rüsum" sözləri "ödənilmiş haqq" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 159; 2018, № 12 (II kitab), maddə 2734) ilə təsdiq edilmiş "Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.3-cü bənddə "dövlət rüsumu" sözləri "haqq" sözü ilə əvəz edilsin;

5.2. 2.2-ci bəndin altıncı abzasında "dövlət rüsumunun" sözləri "haqqın" sözü ilə əvəz edilsin;

5.3. 3.3-cü bəndin dördüncü cümləsində "rüsum" sözü "haqq" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 aprel tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 357; 2014, № 5, maddə 580; 2018, № 12 (II kitab), maddə 2734) ilə təsdiq edilmiş "İxtira və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.3-cü bənddə "dövlət rüsumunun" sözləri "müəyyən edilmiş haqqın" sözləri ilə əvəz edilsin;

6.2. 2.4-cü bəndin birinci və ikinci abzaslarında "dövlət rüsumu" sözləri "haqq" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
**Baş Naziri**